*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 may 2016-cı il | № 35 (2050) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir

***Mayın 9-da Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə rəsmi qəbul təşkil edilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

***Dövlətimizin başçısı rəsmi qəbulda çıxış edərkən bildirib:***



- Bu gün Azərbaycanda faşizm üzərində Qələbə günü qeyd edilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan Qələbənin əldə olunmasında çox böyük rol oynamışdır - həm ön cəbhədə, həm də arxa cəbhədə. 600 mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak etmiş, onlardan 300 mini həlak olmuşdur. Azərbaycan xalqı müharibə illərində qəhrəmanlıq göstərmişdir. Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunmuşlar. Arxa cəbhədə - Azərbaycanda böyük işlər görülmüşdür. Bizim zavodlarımızda hərbi texnika istehsal olunurdu. O texnika və silahlar ki, müharibənin ən ağır anlarında Sovet ordusuna əvəzsiz xidmət edirdi.

Azərbaycan neftçiləri bu illər ərzində yorulmadan çalışmış və Sovet ordusunu yanacaqla təmin etmişlər. Sovet ordusunun yanacağının mütləq əksəriyyəti Azərbaycan neftçiləri tərəfindən təmin edilirdi. Bütün bu amillər deməyə əsas verir ki, Azərbaycan Respublikası faşizm üzərində Qələbənin əldə edilməsində çox böyük rol oynamışdır.

Bu gün mən müharibə veteranları ilə görüşmüşəm, onlarla söhbət etmişəm, onları təbrik etmişəm. Onlar bu gün bu mərasimdə iştirak edirlər və bir daha onlara öz hörmətimi ifadə etmək istəyirəm.

Builki Qələbə Günü Azərbaycanda xüsusi ruh yüksəkliyi ilə qeyd edilir. Bildiyiniz kimi, keçən ayın əvvəlində Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində ordumuz uğurla əks-hücum əməliyyatı keçirmişdir. İşğal olunmuş torpaqlarımızın bir hissəsi əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmiş, təmas xəttindəki mövqelərimiz daha da möhkəmlənmişdir. Bu gözəl tarixi və parlaq qələbə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir. Bilirəm ki, döyüşçülərimizin qarşısında həmişə veteranlarımızın obrazı, Böyük Vətən müharibəsi veteranlarının nümunəsi dayanır.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan öz tarixi keçmişinə çox böyük hörmətlə yanaşır. İkinci Dünya müharibəsində qazanılmış Qələbə bizim ümumi qələbəmizdir. Biz Azərbaycanda həm tarixi həqiqətləri qoruyuruq, imkan vermirik ki, tarix təhrif olunsun, eyni zamanda, müharibə veteranlarını da daim dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

Onu da qeyd etməliyəm, əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində 9 May - Qələbə Günü bayram kimi qeyd edilmirdi. Bayram siyahısından çıxarılmışdı. Ancaq ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bu bayram bərpa edildi və bu gün bu bayram dövlət bayramı kimi qeyd edilir.

Sabah biz ulu öndərin anadan olmasının 93-cü ildönümünü qeyd edəcəyik. Heydər Əliyev Azərbaycan tarixində müstəsna xidmətlər göstərmişdir, böyük tarixi rol oynamışdır. İki dəfə Azərbaycana rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, anarxiyadan, xaosdan inkişafa, tərəqqiyə doğru aparmışdır. 1969-cu ildə Azərbaycan Sovet İttifaqı respublikaları arasında ən aşağı yerlərdə qərarlaşmışdı. Heydər Əliyevin səyləri, bacarığı, biliyi, xalqa olan bağlılığı nəticəsində cəmi 13 il ərzində Azərbaycan ən qabaqcıl respublikaya çevrilmişdir. Sovet İttifaqında Rusiya Federasiyasından başqa, cəmi iki respublika var idi ki, onlar mərkəzdən dotasiya almırdı. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda sənaye istehsalı, kənd təsərrüfatı sahələrində, infrastruktur layihələrinin icrasında çox böyük işlər görülmüşdür və o işlər bu gün də müstəqil Azərbaycana kömək göstərir.

1970-1980-ci illərdə Azərbaycanda elm sürətlə inkişaf edirdi. Azərbaycanda milli mənəvi dəyərlər təbliğ edilirdi. Əlbəttə, biz müstəqil dövlət deyildik və bəzi məsələlərdə fəaliyyətimiz məhdud xarakter daşıyırdı. Ancaq buna baxmayaraq, milli mənəvi dəyərlər, milli ruh, milli ədəbiyyat, mədəniyyət daim diqqət mərkəzində idi. Təsadüfi deyil ki, 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunanda məhz Heydər Əliyevin təkidi ilə Azərbaycan dili Konstitusiyaya ana dili kimi daxil edilmişdir.

Yəni, o illər, doğrudan da, böyük inkişaf illəri olmuşdur. Heydər Əliyevin fəaliyyətini və böyük nailiyyətlərini nəzərə alaraq, o, Moskvaya dəvət edilmiş və ona çox böyük vəzifə verilmişdir - Sovet İttifaqının Baş nazirinin birinci müavini vəzifəsi. Super dövlətin Baş nazirinin birinci müavini vəzifəsi, əlbəttə, bir daha göstərirdi ki, Heydər Əliyev nə qədər istedadlı, peşəkar və işgüzar adam idi. Həmin illərdə o, fəal işləyirdi, bir çox sahələrə nəzarət edirdi və həmin sahələrdə böyük uğurlar əldə olunurdu.

Ancaq 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız olaraq bütün vəzifələrdən kənarlaşdırıldı. Bu, ona qarşı, eyni zamanda, Azərbaycana qarşı böyük ədalətsizlik və təxribat idi. Onun istefasından iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırmışdılar. Yəni, Heydər Əliyev amili onlara imkan vermirdi ki, bu çirkin niyyətlərini ifadə etsinlər. Ancaq Heydər Əliyev siyasi səhnədən gedəndən sonra bu məsələ qalxdı və dərhal ondan sonra Dağlıq Qarabağda xoşagəlməz hadisələr başladı, Ermənistanın təhriki ilə orada separatçı meyillər gücləndi. Əfsuslar olsun ki, o vaxtkı Sovet rəhbərliyi cinayət törədərək bu xoşagəlməz meyillərin qarşısını almadı. Nəinki almadı, almaq istəmədi. Sovet İttifaqının dağılması prosesi məhz o vaxtdan başladı.

Mən yaxşı xatırlayıram ki, Heydər Əliyev bu vəziyyətlə bağlı çox məyus olmuşdu. Onun qurub-yaratdığı vəziyyət dağılırdı. O, burada rəhbər vəzifədə işləyəndə mütəmadi qaydada Dağlıq Qarabağa səfərlər etmişdi - Xankəndiyə, Şuşaya. Mən də o səfərlərin canlı şahidiyəm, iştirakçısıyam. Heç bir amil onu göstərmirdi ki, orada separatçı meyillər güclənə bilsin. Yəni, bu, süni şəkildə ortaya atılmış bir təxribat idi. Əfsuslar olsun ki, bu günə qədər Azərbaycan bu təxribatın acı nəticələrini yaşayır.

**(Ardı 3-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Artıq 13-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.***





Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün - Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri yad olunur. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri də ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə silsilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.

Hər il xalqımızın xilaskar oğlunun doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

**AZƏRTAC**

# Müdafiə naziri cəbhə xəttində olub





Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ön xətdə, işğaldan yeni azad edilmiş ərazilərdə düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri müdafiənin dayanıqlığı, mühəndis-istehkam qurğularının hazırlığı və təkmilləşdirilməsi, hərbi qulluqçuların döyüş hazırlığı, mənəvi-psixoloji vəziyyəti və sosial-məişət şəraiti ilə tanış olub.

Müdafiə naziri düşmənlə təmas xəttində yerləşən bölmələrdə qarşı tərəfi müşahidə edib. Ərazidəki əməliyyat şəraiti və müdafiə zolağında görülən işlər barədə məruzə edilib.

Azərbaycan Respublikasının Milli Qəhrəmanı polkovnik-leytenant Şükür Həmidova vaxtından əvvəl növbəti polkovnik hərbi rütbəsi təqdim olunub.

Aprel döyüşlərində fərqlənən hərbi qulluqçularla görüşən Müdafiə naziri onlara qiymətli hədiyyələr təqdim edib və onlarla çay süfrəsi arxasında söhbət aparıb.

Səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyət vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiklərini və Ali Baş Komandanın əmri ilə ölkəmizin ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda hər an döyüşə hazır olduqlarını bildiriblər.

# Cəbhə bölgəsində zirehli texnika qruplarının döyüş hazırlığı təlimi keçirilib

2016-cı ilin döyüş hazırlığı planına uyğun olaraq, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə cəbhəboyu zonada yerləşən hissə və bölmələrin zirehli texnikalarından ibarət qrupların döyüş hazırlığı təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlər zamanı döyüş texnikası və piyadaların atıcı silahlardan döyüş sursatları ilə praktiki atışlar icra edilib, bölmələr birbaşa təyinatları üzrə qarşıya qoyulmuş tapşırıqları praktiki olaraq yerinə yetiriblər.





## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan xalqına qarşı növbəti təxribat 1990-cı ildə törədilmişdir - Qanlı Yanvar cinayəti. Günahsız insanlar öldürülmüşdür, qətlə yetirilmişdir. 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş böyük cinayətdir. Heydər Əliyev dərhal öz səsini ucaltdı. Ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmişdir. Mən də onunla bərabər orada idim. Mətbuat konfransında Sovet rəhbərliyini ittiham etmişdir. Onların hərəkətlərini pisləmişdir. Deyə bilərəm ki, o vaxt Sovet məkanında bu, çox nadir bir hadisə idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı kimi nəhəng bir dövlət dağıla bilər. O vaxt belə cəsarətli addımın atılması bir daha onu göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır, bu insan nə qədər fədakardır, nə qədər cəsarətlidir.

Təbii ki, ondan sonra ona qarşı təzyiqlər, təqiblər, mətbuatda qarayaxma kampaniyası başlamışdır. Ancaq bu çirkin, təxribatçı addımlar onu yolundan döndərə bilməmişdir. O, bu hadisələrə etiraz olaraq, uzun illər, onilliklər ərzində xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxmışdır. Bakıya qayıtmışdır. Çünki artıq Moskvada yaşamaq təhlükəli idi. Əfsuslar olsun ki, Bakıda da yaşamağa imkan verməmişlər və doğulduğu yerə - Naxçıvana üz tutmuşdur. Naxçıvan əhalisi onun ətrafında birləşərək o ağır illəri şərəflə yaşamışdır. İlk növbədə naxçıvanlılar Heydər Əliyevi bütün təzyiq və təxribatlardan qorudular. Sonra isə o, Naxçıvanın rəhbəri kimi, Naxçıvanı işğaldan qorudu.

O illər müstəqilliyimiz üçün həlledici illərdir. Çünki mən hesab edirəm ki, müstəqilliyə gedən yol məhz o illərdə Naxçıvanda başlamışdır. Çünki Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı - bizim dövlət bayrağımız Naxçıvanda dövlət bayrağı kimi elan edilmişdir. O vaxt hələ Sovet İttifaqı yaşayırdı və yenə də deyirəm, Sovet İttifaqının dağılması haqqında bəlkə də çoxları heç fikirləşmirdi.

Azərbaycanda isə əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində vəziyyət tənəzzülə uğrayırdı. Siyasi böhran iqtisadi böhranla tamamlanırdı. Xalq arasında o vaxtkı iqtidara inam tamamilə tükənmişdi. Vətəndaş müharibəsi başlamışdı. Ermənistanın işğalı alovlanırdı, genişlənirdi, torpaqlarımız işğal altına düşürdü. Şuşa, Laçın, ondan sonra Kəlbəcər rayonlarının işğalı nəticəsində Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlılıq yaranmışdı. Belə ağır vəziyyətdə xalq yenə də Heydər Əliyevə müraciət etdi. Onu hakimiyyətə dəvət etdi və ümidləri ancaq ona bağlayırdı. Müstəqilliyimiz üçün ən ağır anlarda yenə də Heydər Əliyev öz xalqının yanında idi. Öz xalqına rəhbərlik etməyə razılıq vermişdir.

1993-cü ildən başlayaraq, Azərbaycanda bütün sahələrdə dönüş yarandı. Vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərksilah edildi. Azərbaycanda qayda-qanun yaradıldı və ölkə inkişaf dövrünə qədəm qoydu.

Ondan sonrakı dövr - 1993-2003-cü illəri əhatə edən dövr inkişaf, sabitlik dövrü olmuşdur. Azərbaycanda siyasi sistem formalaşmışdır. Konstitusiya qəbul olunmuşdur. Azərbaycan dünyaya öz imkanlarını təqdim etmişdir. "Əsrin kontraktı" imzalanmışdır. Sonra isə "Şahdəniz" qaz yatağının işlənməsi üzrə kontrakt imzalanmışdır. Demokratik islahatlar aparılmağa başlanılmışdır. Məhz o illərdə milli ideologiyamız - Azərbaycançılıq məfkurəsi formalaşmışdır ki, bu gün də bütün Azərbaycan xalqını birləşdirir. Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyətin inkişafı və buna güclü təkan verilməsi prosesi başlanmışdır. Bu gün bu, bizim böyük sərvətimizdir. Azərbaycan dünya miqyasında multikultural cəmiyyət kimi özünü təqdim edir və bizim nümunəmiz bir çox ölkələrdə dərin təhlil olunur.

1993-2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmişdir, dövlətin əsasları qoyulmuşdur. Məhz buna görə biz həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, bizim ölkəmiz Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. O, heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı bu qanlı cinayət törədilsin.

Müstəqilliyimizin ilk illərində baş vermiş hadisələr bizə çox baha başa gəldi. O hadisələri yada salarkən bir daha görürük ki, bu gün Azərbaycan, sözün əsl mənasında, inkişaf yolundadır. Bu gün Azərbaycan müstəqil dövlət kimi özünü dünya miqyasında təsdiqləyib. Müstəqilliyə gedən yol, bax, qeyd etdiyim hadisələrdən başlamışdır.

2003-cü ildən sonra Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk.

Təbii ki, vəziyyət dəyişir, dünya dəyişir. Bu gün bölgədə yaşanan hadisələr, problemlər o vaxt mövcud deyildi. Biz bütün çağırışlara hazırıq. Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir. Bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Son illərin tarixi bunu bir neçə dəfə sübut etmişdir.



Azərbaycanda vətəndaş cəmiyyəti formalaşıb. Cəmiyyət vahid amal uğrunda birləşib. Azərbaycanın gələcək inkişafı ilə bağlı, inkişafa gedən yollarla bağlı cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Xalq-iqtidar birliyi bu gün bizim inkişafımızın əsas şərtidir, sabitliyimizin əsas amilidir. İctimai-siyasi sabitlik göydən düşmür. Buna nail olmaq üçün düşünülmüş siyasət aparılmalıdır. O siyasət ki, xalqın tələblərinə, ümidlərinə cavab verir.

Bu gün bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi dayanır. Azərbaycanda təhlükəsizlik məsələləri lazımi səviyyədə təmin edilir. İctimai-siyasi sabitlik mövcuddur. İnsanların rifah halı yaxşılaşır. Baxmayaraq, bu gün hələ ki, davam edən dünya iqtisadi və maliyyə böhranı bizə də öz təsirini göstərmişdir. Ancaq hesab edirəm ki, biz bu böhrandan şərəflə çıxa bilmişik və bu gün iqtisadi sahədə heç bir problem yaşanmır.

Bu strategiya 1994-cü ildən icra edilməyə başlamışdır. "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu gün "Əsrin kontraktı" çərçivəsində aparılan işlər bizim iqtisadi gücümüzü artırır. 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənməsi ilə bağlı imzalanmış kontrakt bu gün nəinki Azərbaycanın, bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, Azərbaycanın geosiyasi imkanlarını və vəziyyətini böyük dərəcədə möhkəmləndirir. 1999-cu ildə Bakı-Supsa neft kəmərinin inşası və ulu öndərin şəxsi iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməl daşının qoyulması Heydər Əliyev neft strategiyasının əsas amilləridir. Bu gün bu istiqamətdə əlavə tədbirlər görülür. Ulu öndərin başladığı layihələr tam icra edilibdir. 2006-2007-ci illərdə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri istismara verildi. Bu gün biz "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə fəal məşğuluq və bu istiqamətdə də çox böyük uğurlara imza atmışıq.

Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmlənmişdir. Azərbaycanı indi bütün dünya ictimaiyyəti tanıyır və bizim fəaliyyətimizə böyük rəğbətlə yanaşır. Azərbaycanda keçirilən qlobal beynəlxalq tədbirlər həm imkanlarımızı, gücümüzü göstərir, eyni zamanda, bizə olan hörməti daha da artırır.

Bu il Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çox böyük uğurla keçirilmişdir. Keçən il Avropa Oyunları böyük uğurla keçirilmişdir, gələn il İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu və digər mötəbər tədbirlər dünyanın diqqətini cəlb edir. Bu, bizim dövlətimizi gücləndirir. Əfsuslar olsun ki, Ermənistan, onun xaricdəki havadarları və erməni lobbisinin nümayəndələri uzun illərdir bizə qarşı çirkin kampaniya aparırlar. Onlar böhtan, şər, qarayaxma kampaniyası aparırlar ki, bizi ləkələsinlər. Onların geniş maliyyə imkanları var. Bir çox hallarda onlar başqa müəlliflərin arxasında gizlənərək müxtəlif mətbu orqanlarda Azərbaycana qarşı qərəzli və təhqiredici yazılar da dərc edirlər, daim anti-Azərbaycan kampaniyası aparırlar. Onların bir nömrəli hədəfi Azərbaycandır. Belə olan halda, əlbəttə ki, biz öz həqiqətlərimizi, real vəziyyəti dünyaya çatdırmalıyıq. Əlbəttə, bu istiqamətdə bir çox işlər görülür. Ancaq Bakıda, Azərbaycanın digər yerlərində keçirilən mötəbər beynəlxalq tədbirlər, əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Çünki buraya gələn qonaqlar Azərbaycan reallıqlarını öz gözləri ilə görürlər. Görürlər ki, bu, müasir, inkişafda olan ölkədir. Görürlər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Görürlər ki, Azərbaycanda insanlar rahat, demokratiya şəraitində yaşayırlar. Azərbaycanda insan haqları qorunur, bütün azadlıqlar mövcuddur.

Azərbaycan sürətli inkişaf yolundadır. Bu inkişafı biz öz hesabımıza qazanmışıq. Nəyi qazanmışıqsa, nəyi əldə etmişiksə, ancaq Azərbaycan xalqının zəhməti hesabına, düşünülmüş siyasət nəticəsində əldə etmişik. Bizə heç kim kömək etməmişdir, etmir və etməyəcəkdir. Buna ehtiyac da yoxdur. Ancaq biz öz işimizi elə qurmuşuq ki, bütün sahələr üzrə konkret proqramlarımız var və onlar icra edilir.

Azərbaycan gələcək illərdə beynəlxalq aləmdə daha da böyük hörmətə layiq olacaqdır. Ölkə daxilində proseslər müsbət istiqamətdə gedir. Bizim regional əməkdaşlıqla bağlı təşəbbüslərimiz nəinki ölkəmizi, qonşu ölkələri də gücləndirir. Bizdə gələcək inkişafla bağlı çox dəqiq proqramlar var və gələcəyə baxışımız çox dəqiqdir.

Qarşımızda duran əsas vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bu istiqamətdə həm siyasi, həm diplomatik və digər amillərdən istifadə edərək öz mövqeyimizi danışıqlar prosesində gücləndiririk. Haqq-ədalət bizim mövqeyimizi dəstəkləyir, müdafiə edir. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsidir. Beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr bizim mövqeyimizi gücləndirir və müdafiə edir.

O ki qaldı Ermənistan ilə Azərbaycan arasındakı fərqə, bu fərq göz qabağındadır. Mən dəfələrlə demişəm, həm siyasi müstəvidə, iqtisadi sahədə, bütün digər sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində Azərbaycanın üstünlüyünü görməmək mümkün deyil. Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər.

Beləliklə, bizim gələcək planlarımızla bağlı çox dəqiq təsəvvürümüz var. Biz ölkəmizi daha da gücləndirməliyik, Azərbaycan xalqının rifah halını daha da artırmalıyıq və dünya miqyasında Azərbaycan daha da möhkəm yer tutmalıdır. Bir sözlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün, əlbəttə ki, beynəlxalq norma və prinsiplər əsas rol oynayır. Amma biz daha da güclü olmalıyıq və bu yolla gedirik. Bu yol Heydər Əliyev yoludur. Biz onun siyasətinə sadiqik, bu yolla gedirik və bundan sonra da gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik. Sağ olun.

# Prezident İlham Əliyev 9 May Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib



***İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.

Müharibə veteranları ilə görüşən Prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.

Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Dövlətimizin başçısının bu il imzaladığı sərəncamla Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqradın mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Prezidentin təqaüdünün aylıq məbləği 10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilib. Azərbaycan Prezidentinin imzaladığı digər sərəncamla Böyük Vətən müharibəsi iştirakçılarına 1000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, Böyük Vətən müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncama əsasən isə Veteranlar Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədi ilə 2016-cı ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 500 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir.





Azərbaycan Prezidenti iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşdü, onları Qələbə bayramı münasibətilə təbrik etdi.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyan Prezident, Ali Baş Komandan İlham Əliyev İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərən cəsur sərkərdənin, xalqımızın igid oğul və qızlarının, tarixi Qələbənin qazanılmasında payı olan milyonlarla insanın əziz xatirəsini dərin ehtiramla yad etdi.

Dövlətimizin başçısı İkinci Dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.

Prezident İlham Əliyev veteranları Qələbə bayramı münasibətilə bir daha təbrik etdi, ən xoş arzularını çatdırdı.

**Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Dadaş Rzayev dedi:** Cənab Prezident, 1 milyon 300 min pensiyaçı və veteran həmişə Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, Sizin arxanızdadır. Sizin cəbhə bölgəsinə səfəriniz bütün Azərbaycan xalqını, biz veteranları çox sevindirdi.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən həmişə sizi dəstəkləyirəm. Çalışıram ki, sizə öz köməyimi göstərim. Bayram ərəfəsində bütün veteranlara mükafat verildi. İldən-ilə mükafatları artırırıq.

**Veteran:** Bəli, 1000 manat, 500 manat. Hər şeyimiz var. Heç yerdə belə bir şey yoxdur.

**Veteran (qadın):** Sağ olsun, bizim Prezidentimiz. Yenə də sağ olsun. Onu da deyim ki, mənim balam, Sizi Mehriban xanımla birgə cəbhə xəttində görəndə ürəyim dağa döndü. Dedim, halal olsun sizə. Azərbaycan xalqı bəxtəvərdir ki, bizim belə Prezidentimiz, xanımlar xanımı Mehribanımız var. Allah sizi qorusun.

**Dadaş Rzayev:** Cənab Prezident, bizə bağışladığınız inzibati bina muzey olub.

**Prezident İlham Əliyev:** Keçən il bərabər açmışdıq.

**Veteran (qadın):** Bizim Prezidentdən yoxdur, ola da bilməz.

**Prezident İlham Əliyev:** Mən sizi bu gün rəsmi ziyafətə dəvət edirəm. Heydər Əliyev Mərkəzində rəsmi ziyafət olacaq. Mən sizi oraya dəvət edirəm. Gəlin, görüşümüzü orada da davam etdirərik.

* * *

Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# HDQ-nin yeni dəniz hazırlığı və dalğıc poliqonunun açılışı olub



Mayın 7-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakı ilə Hərbi Dəniz Qüvvələrinin bazasında yeni inşa edilən dəniz hazırlığı və dalğıc poliqonunun açılışı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ən yeni dalğıc texnikası nümunələri, suyadalma vasitələri, xüsusi avadanlıqlarla təmin edilmiş poliqonun infrastrukturu ilə tanış olan Müdafiə naziri ərazidə yaradılan gəmi və qayıq avadanlıqları kompleksləri, enerji, mühərrik sinifləri, barokamera və təlimatçı otaqları, tədris hovuzu, eləcə də digər inzibati və xidməti bölmələrə baxış keçirib.

Sonra təlim-məşq katerinə gələn Müdafiə naziri şəxsi heyətin praktiki hazırlığı üçün nəzərdə tutulmuş idarəetmə, gəminin davamlılığı və yanğına qarşı mübarizə postlarında da olub.

Xüsusi hazırlıq proqramına uyğun il boyu fasiləsiz davam edəcək nəzəri və praktiki məşğələlərdə dalğıclara sualtı üzgüçülük, qəza-xilasetmə və digər növ sualtı əməliyyatların yerinə yetirilməsi, eləcə də sualtı təchizat və avadanlıqlar barədə biliklər tədris ediləcəkdir.



## Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı ziyarət edib

Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanı ziyarət edib.

Ulu öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

## Azərbaycanda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə əlaqədar 500 min manat vəsait ayrılıb

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, sərəncama əsasən, müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı Azərbaycan Respublikası Veteranlar Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə Prezidentin ehtiyat fondundan 500 min manat vəsait ayrılıb.

## “Gənclər qəhrəmanlığı sizdən öyrənirlər”

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının konfrans zalında Böyük Vətən müharibəsinin veteranları ilə görüş keçirildi.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev Böyük Vətən müharibəsinin veteranları ilə görüşüb, onları 9 May Qələbə Günü münasibəti ilə təbrik etdi, cansağlığı və uğurlar arzuladı.

Sonra çıxış etmək üçün tribunaya qalxan nazir müavini üzünü veteranlara tutaraq dedi:

- Əziz veteranlar, hər birinizi Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından, öz adımdan salamlayır və 9 May Qələbə Günü münasibəti ilə təbrik edirəm. Bu günlər ölkəmizdə 71 illiyi böyük təntənə ilə qeyd olunan Qələbəni siz qazanmısınız. Bu sevinci xalqımıza siz bəxş etmisiniz. Sizlər döyüşlərdə böyük hünər və qəhrəmanlıq göstərərək nəsillərə nümunə olmusunuz. Bugünkü gənclər qəhrəmanlığı, igidliyi sizdən öyrənirlər, həmişə də öyrənəcəklər. Cəmiyyətdə sizə olan böyük diqqət və qayğı heç vaxt tükənməyəcək. Bildiyiniz kimi, bu yaxınlarda cəbhədə Ermənistan silahlı qüvvələri tərəfindən irimiqyaslı təxribatlar baş vermişdi. Azərbaycan Silahlı Qüvvələri bu təxribatlara qarşı ünvanlı və sərt cavab verdi. Nəticədə düşmən ağır itkilərə məruz qaldı. Torpaqlarımızın bir qismi işğaldan azad edildi. Bu sadəcə düşmənə bir xəbərdarlıq idi ki, işğal etdiyi Azərbaycan torpaqlarından çıxıb getsin. Biz qan tökmək istəmirik. Biz istəyirik ki, qəsbkarlar torpaqlarımızı tərk etsinlər. Bunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyir, bunu Müdafiə naziri general-polkovnik Zakir Həsənov deyir, bunu Azərbaycan xalqı deyir. Bizim doğma torpaqlarımızda düşmənin silahlı qüvvələri qalmamalıdır. Hələlik, cəbhədə atəşkəs rejimi hökm sürür. Gücümüzü görüb qarşımızda dayana bilməyən ermənilər qorxuya düşərək həmişəki kimi, müxtəlif beynəlxalq təşkilatlara müraciət edərək atəşkəs rejimini bərpa etməyi istəyiblər. Bizdən xahiş edirlər ki, hələlik, atəşi dayandıraq, sülh danışıqları davam etsin. Biz xəbərdarlığımızı eləmişik. Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızı azad etməyə hər an hazırdır. Qətiyyətli Ali Baş Komandanımız, qüdrətli ordumuz var. Əziz veteranlar, bir daha bayramınızı təbrik edir, sizə uğurlar arzulayıram.



Qələbənin 71-ci ildönümü ilə əlaqədar olaraq Böyük Vətən müharibəsi veteranlarının mükafatlandırılması haqqında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri oxundu. Veteranların hər birinə pul mükafatı təqdim olundu.

Müharibə iştirakçısı Fatma Səttarova çıxış etdi. "Veteranlara göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova veteranlar adından dərin minnətdarlığımı bildirirəm", - dedi.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev də çıxış edərək bir daha ölkə başçısına, Müdafiə nazirinə minnətdarlığını bildirdi.

General-leytenant Kərim Vəliyevə "Veteranların Qayğıkeşi" diplomu təqdim edildi.

Görüşün sonunda veteranlar xatirə şəkli çəkdirdilər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Əsgərimiz şəhid olub

Mayın 8-də qoşunların təmas xəttində düşmənlə atışmada Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Heydərov Əli İntiqam oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

### Yaralı zabitimiz dünyasını dəyişib

Aprelin əvvəllərində döyüş əməliyyatları zamanı yaralanan zabitimiz kapitan Savalanov Nəcməddin Akif oğlunun həyatını xilas etmək üçün həkimlərin səyinə baxmayaraq, o, mayın 8-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında dünyasını dəyişib.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 may 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 134 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Mərzili, Qaraqaşlı, Şuraabad, Nəmirli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqeləri və səngərlərinə 135 dəfə atəş zərbəsi endirib.

AZƏRBAYCAN ORDUSU

# Böyük Vətən müharibəsində həlak olanların xatirəsi yad edilib



Böyük Vətən müharibəsində Qələbənin 71 illiyi münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə və hərbi hissələrdə silsilə tədbirlər keçirilir.

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, şəxsi heyət tərəfindən Böyük Vətən müharibəsi illərində həlak olmuş həmvətənlərimizin xatirəsinə ucaldılmış abidələr ziyarət olunub, müharibə veteranları ilə görüşlər keçirilib, onların qəhrəmanlıqlarına həsr olunmuş filmlərə baxış təşkil edilib, eləcə də hərbi qulluqçular digər mədəni-kütləvi tədbirlərdə iştirak ediblər.

Mayın 9-da Bakı şəhərində iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin xatirələrinə ucaldılmış abidələr və Qardaşlıq məzarı ziyarət olunub, önlərinə çiçəklər düzülüb, əziz xatirələri dərin ehtiramla yad edilib.

Bayram tədbirləri eyni zamanda bütün qarnizonlar və iri şəhərlərdə də keçirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi orkestrlərin çıxışları böyük maraqla qarşılandı

***Xəzərin mirvari dalğaları sakit görsənir. İlıq yaz havası da sanki könüllərin seyrinə çıxıb. Azadlıq meydanı ilə üzbəüz fəvvarələrin qarşısında izdiham yaşanır. Dayandığımız məkan Dənizkənarı parka istirahətə gələn insanlar üçün əlverişli olduğundan bu istiqamətdə axın gur idi.***

Budur, Hərbi Dəniz Qüvvələrinə məxsus orkestrin üzvləri ilk mahnını səsləndirirlər. Qeyd edək ki, şəhərin müxtəlif yerlərində - Dənizkənarı Milli park, Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev adına park, Zərifə Əliyeva adına park, Zabitlər parkı, Fəvvarələr meydanı və digər yerlərdə də eyni vaxtda Silahlı Qüvvələrin orkestrlərinin nümunəvi çıxışları ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə və faşizm üzərində Qələbənin 71 illiyinə həsr edilib.

Hərbi orkestrin səsləndirdiyi vətənpərvərlik mahnıları insan qəlbini riqqətə gətirir, musiqi sədaları adamları bir anlıq ayaq saxlayıb ürəklərinə yatan mahnıları dinləməyə ruhlandırır.

Kənarda dayanıb orkestrə drijorluq edən zabitin əl hərəkətlərindən nəzərini belə qaçırmayan ağsaqqal diqqətimi çəkir. Öyrənirəm ki, Ağami Ağamalıyev orkestrin drijoru leytenant Anar Ağamalıyevin atasıdır. O, uzun illər mühəndis işləyib, hazırda təqaüddədir. Oğlunun öz sənətini sevdiyini deyən ağsaqqal belə tədbirlərin kütləvi yerlərdə təşkilinin vacibliyini və gənclərimizə vətənpərvərlik hisslərinin aşılanmasında böyük rol oynadığını söyləyir.

Adını öyrəndiyim Yulya Krasnovanın da konserti böyük maraqla izlədiyini görürəm. Evdar qadın bizə dedi ki, ötən il də Qələbənin 70 illiyi keçiriləndə belə konsertlər təşkil olunmuşdu. "Biz Azneft meydanına yaxın ərazidə yaşayırıq. Dənizkənarı parka tez-tez gələrəm. Burada gənclər daha çox istirahət edirlər. Ona görə də belə tədbirlərin bu məkanda təşkili çox yaxşı haldır. Uşaqlara, gənclərə Vətən sevgisi aşılanır."



Təqaüdçü həkim Tatyana Mamontova keçmiş günləri xatırlayır. "Atam Böyük Vətən müharibəsi illərində Xəzər Hərbi Dəniz Donanmasında xidmət edib. Birinci dərəcəli kapitan olub. Azərbaycan bizim Vətənimizdir. Burada illərdir ki, dinc, sakit, firavan yaşayırıq. Bakımız dünyada gözəlliyi, qədimliyi ilə tanınır."

Sakitcə oturub mahnıların sədaları altında xəyallara söykənən ağsaçlı nurani bir anaya yaxınlaşıram. Özünü təqdim edir: - Hülmayə Çələbiyeva. "Əslən Şəki şəhərindənəm. Uzun illər ibtidai sinif müəllimi olmuşam. Hazırda təqaüddəyəm. Dərs dediyim illər ərzində şagirdlərimə işğal olunmuş rayonlarımızın tarixini elə əzbərlədirdim ki, onların yaddaşına əbədi həkk olunurdu. Biz faciələrimizi, qan yaddaşımızı unutmamalıyıq. Atam Süleyman Çələbiyev II Dünya müharibəsinin iştirakçısı olub. Müharibənin ağrıacılarından hər zaman söhbət açardı. Mənfur qonşularımız bizə də müharibə acısını yaşatdılar. Bacım oğlu 1992-ci ildə Qubadlı döyüşlərində şəhid olub. İnanırıq ki, Prezidentimiz İlham Əliyevin sayəsində ordumuz torpaqlarımızı işğaldan azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq."

Hərbi orkestrin müşayiəti ilə səsləndirilən döyüş ruhlu mahnıları böyük həvəslə dinləyən şəhər sakini Səfurə Nəbiyeva isə atasının Böyük Vətən müharibəsi əlili olduğunu söyləyir. "Atam müharibədə ayağını itirmişdi. I qrup əlil idi. 3 ildir ki, dünyasını dəyişib. O həmişə deyirdi ki, faşizmə dünyada yer yoxdur. Vaxt gələcək erməni faşizmi də məhv olacaq."

Uzaqdan orkestrin sədaları altında insanlar ayaq saxlayıb mahnıları dinləyir, istirahətlərini davam etdirirlər. Bu mənzərədən razı qaldıqları üzlərindəki xoş təbəssümdən sezilirdi...

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Məktub ürəyin sözüdü

*Hər məktub ürək sözüdü. Vətənlə döyünən ürəyin sözü daha duyğusal olur. Məktubu 13-14 yaşlı məktəbli yazıbsa, necə? Oxuyursan, düşünürsən, ürəyin dağa dönür...*

*Son vaxtlar Müdafiə Nazirliyinə, eləcə də redaksiyamıza ünvanlanan məktublar ordumuza inamın, əsgərlərimizə sevginin, ehtiramın təzahürüdü. Hər cümləsində milli-xəlqi ruh yaşadan bu məktubların hər birini Vətənin keşiyində dayananlara müqəddəs sevgi bilirik.*

*Bu yaşda uşaqların düşüncəsindən, məntiqli mətləbindən, inamından, güvəncindən qürurlanırsan. Onların timsalında sabahlarımızın vətənsevər gələcəyini görürük...*

**"Azərbaycan Ordusu"**

## Sən Azərbaycan əsgərisən!

Salam, əsgər qardaşım. Səni tanımadan sənə məktub yazıram. Sənə güvəncim sonsuz olduğuna görə, ürəyimin hökmüylə yazıram.

Sən Vətənimizi qoruyursan. Çətinliklər də görürsən. Ancaq hərbi xidmətindən bu çətinliklərin neçə misli qədər artıq qürur duyursan. "Mən əsgərəm!" deyirsən. Sakit həyatımızın səbəbkarı olduğun üçün hamı sənə fəxrlə, sevgilərlə baxır.

Aprel döyüşlərində nələrə qadir olduğunu gördük.

Səngərdə dayanan əsgər qardaşım! Sən Vətənimiz üçün bütün təhlükələrə sinə gərirsən. Hər birinizin bir müqəddəs istəyi var: torpaqlarımızı işğaldan azad etmək, üçrəngli bayrağımızı o ərazilərimizdə də dalğalandırmaq. Güman edirəm ki, sən həmin günün xəyalı ilə yaşayırsan. İnanıram ki, sənin bu istəyin yaxın vaxtlarda gerçəkləşəcək...

Səni tanımıram. Ancaq mərd, dözümlü, qorxmaz, cəsarətli olduğunu bilirəm. Axı sən Azərbaycan əsgərisən!..

Əsgər qardaşım! Sənə böyük qələbələr arzulayıram! Qələbə sevincini bizə sən yaşadacaqsan! Həm də yaxın vaxtlarda!

Sağ olun!..

**Leyla ORUCOVA,
Astara şəhəri,
R.Cavadov adına
7 saylı tam orta məktəbin
VIII sinif şagirdi**

## Əsgərlər qardaşımızdır

Mən tələbəyəm.

Atam hərbçidir. Dilim söz tanıyandan, əlim qələm tutandan bəri eşitdiyim, yazdığım sözlər sırasında həmişə Vətən olub, bayraq olub, əsgər olub, ordu olub. Bu dörd söz mənim də düşüncələrimin ən gözəlidi.

Qardaşım Kənan məktəblidi. Zamanında o da əsgər olacaq. Vətəni sevənlərin hamısını qardaşım bilirəm. Mənim minlərlə qardaşım var!.. Vətənimi, əsgərlərimizi, ordumuzu bu qədər sevməyimdə atamın söhbətlərinin də əhəmiyyəti çox olub.

Aprel döyüşləri başlayanda "Azərbaycan Ordusu" qəzetinin bir qrup əməkdaşının ön cəbhəyə ezam edildiyini atamdan eşidəndə, onlara həsəd apardım: döyüşlərdə iştirak etmiş əsgərlərin əlini sıxacaqdılar, onlarla söhbət edəcəkdilər, qələbə sevincini qələbə qazanan əsgərlərlə birlikdə yaşayacaqdılar.

Azərbaycan əsgəri olduqca mühüm əhəmiyyətli yüksəklikləri, o cümlədən Lələtəpə yüksəkliyini ermənilərdən təmizlədi. Əks-həmlə təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ermənilər gördülər ki, işğal etdikləri torpaqlarda çox qala bilməyəcəklər. Sülh danışıqları baş tutmasa, Azərbaycan Ordusu daha qətiyyətlə döyüşlərə atılacaq. Bu döyüşlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin son döyüşü olacaq.

"Azərbaycan Ordusu" qəzetində dərc olunmuş məqalələrdən birində oxuduğum "işğalçılıq niyyəti torpaqsevərliyə, vətənsevərliyə qalib gələ bilməz" fikri Vətənimizi, dövlətimizi, dövlətçiliyimizi, ordumuzu sevən bir gənc kimi mənim də inamımı ifadə edir.

Bu döyüşlər təsdiqlədi ki, azərbaycanlı əsgər və zabitlər Vətəni bütün varlığıyla sevir, məqamında Vətən üçün canından da keçir.

Lələtəpə adı biz tələbələri də qürurlandırır. Orda dalğalanan bayrağımız bizim də istəyimizin ehtişamıdır. Üçrəngli bayrağımızın burda dalğalanması bir mövqe qələbəsinin nəticəsidir. Bayrağımızın yaxınlarda Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Qubadlıda, Cəbrayılda, Zəngilanda, Xankəndidə dalğalanacağına inamımız sonsuzdur. Bu günlərdə bir mahnı eşitdim: "Lələtəpə fatehləri". Çox keçməz, "Qarabağ fatehləri" mahnısının nəqəratını hamımız oxuyarıq!

Biz gənclər ordumuzun qüdrətinə inanırıq. Ali Baş Komandana, əsgərlərimizə güvənirik.

**Şəbnəm BEHBUDZADƏ,
"Xəzər" Universitetinin
tələbəsi**

# Azərbaycanda müharibə veteranlarına hər zaman xüsusi diqqət və qayğı göstərilir




***İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü ilə bağlı Səbail rayonunun Bayıl yaşayış sahəsində ictimaiyyətin nümayəndələrinin, Hərbi Dəniz Qüvvələrinin zabit və matroslarının, veteranların iştirakı ilə təntənəli tədbir keçirilib.***

Tədbirdə Hərbi Dəniz Qüvvələrinin orkestrinin ifasında müxtəlif marşlar səsləndirilib. Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun parkda ucaldılmış büstünün önünə rayon İcra Hakimiyyəti adından əklil qoyulub, donanmanın zabit və əsgərləri, məktəblilər büstün önünə tər çiçəklər düzüblər.

Orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Səbail rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov əlamətdar gün münasibətilə veteranları və tədbir iştirakçılarını təbrik edib. Azərbaycan xalqının bu gün də öz keçmişi, xüsusilə də müharibədə iştirakı ilə fəxr etdiyini deyən icra başçısı ölkəmizdə veteranlara böyük hörmət göstərildiyini bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyev daim müharibə veteranlarına xüsusi qayğı və diqqətlə yanaşıb, onların problemləri ilə yaxından maraqlanıb. Azərbaycan xalqı yaxşı bilir ki, II Dünya müharibəsinin veteranları bizim ən əziz və ən mötəbər insanlarımızdır.

Bildirilib ki, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm əhəmiyyətli tədbirlər hesabına müharibə veteranlarının sosial müdafiəsi daha da yaxşılaşır. Qələbənin 71 illiyi ərəfəsində Azərbaycan Prezidentinin sərəncamı ilə 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyə görə orden və medallarla təltif olunmuş şəxslərə birdəfəlik maddi yardımın verilməsi dövlətimizin başçısının veteranlara qayğısının bariz nümunəsidir.



Sonra tədbir parkın qarşısında yerləşən, müharibə illərində təxliyyə hospitalının fəaliyyət göstərdiyi 49 saylı "İntellekt" liseyinin yeni tədris korpusunda davam etdirilib. Qeyd olunub ki, rayonun idarə və təşkilatlarında, ali və orta məktəblərində tədbirlər, veteranlarla görüşlər, çoxsaylı mədəniyyət müəssisələrində, o cümlədən muzey və kitabxanalarda, sərgi salonlarında sərgilər açılıb. Müharibə qəhrəmanlarının abidələrinin ucaldığı parklarda iməciliklər təşkil edilib. Orta məktəblərin kollektivləri məktəbə yaxın ərazilərdə yaşayan müharibə veteranlarının yaşadıqları mənzillərə bayram sovqatı çatdırıblar.

Tədbirdə çıxış edən veteranlar öz xatirələrindən söz açıb, onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Veteranlara hədiyyələr və maddi yardım təqdim olunub.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsində veteranlarla görüş olub

***İkinci Dünya müharibəsi ötən əsrdə ən böyük insan tələfatı ilə nəticələnmiş müharibədir. Faşistlər o zaman Vətənimiz hesab olunan Sovet ittifaqına qəfil hücum etdilər. Sovet xalqı millətindən, dinindən, irqindən asılı olmayaraq faşizmə qarşı birgə döyüşdü.***



Dörd il davam edən müharibə SSRİ-nin zəfəri ilə başa çatdı. Bu müharibədə Azərbaycanın igid oğul və qızları da böyük qəhrəmanlıq və rəşadət göstərdilər. Dövlətin yüksək fəxri adlarına, orden və medallarına layiq görüldülər.

Bu gün SSRİ adlı dövlət mövcud deyil. Lakin onun tərkibindən çıxaraq əbədi müstəqilliyə qovuşan Azərbaycan Respublikası var. Azərbaycan dövləti və xalqı zamanında Vətən uğrunda döyüşən qəhrəman oğul və qızlarını unutmur, hər il 9 May Qələbə Gününü böyük təntənə ilə qeyd edir. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev müharibə iştirakçılarına və onların dul qalmış qadınlarına birdəfəlik maddi yardımın verilməsi barədə imzaladığı sərəncam bir daha veteranlara və onların ailələrinə göstərilən yüksək dövlət qayğısının təzahürüdür.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ənənəvi olaraq bu il də Böyük Vətən müharibəsi veteranlarını görüşə dəvət etmişdi. Tədbirdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələrin Veteranları Təşkilatının əməkdaşları, Müdafiə Nazirliyinin hərbi qulluqçuları iştirak edirdilər. Böyük Vətən müharibəsi veteranlarının şərəfinə ziyafət təşkil edilmişdi.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova qonaqları salamladı və Qələbənin 71-ci ildönümü münasibətilə onlara təbriklərini çatdırdı.

Öncə ulu öndər Heydər Əliyevin, faşizmə qarşı mübarizədə və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Abiyat xanım 9 May Qələbə Günü münasibətilə faşizmə qarşı döyüşmüş igid oğul və qızlarımıza dövlətimizin rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğıdan söhbət açdı. Xalqımıza qələbə sevincini yaşadan veteranlarla belə görüşlərin ənənəyə çevrildiyini bildirdi. Sonra natiq bu il aprelin ilk günlərində cəbhədəki hadisələrdən danışaraq qeyd etdi ki, ermənilərə qarşı son döyüşlərdə ordumuzun əldə etdiyi qələbə xalqda böyük inam yaradıb. "Azərbaycan əsgəri illərlə dillərdə dolaşan erməni mifini bir gecənin içində yox etdi. 9 May Qələbə sevincini bizlərə yaşadan döyüşçülərimizin nəvələri tezliklə Qarabağ müharibəsini də zəfərlə başa vuracaqlar."

Böyük Vətən müharibəsinin iştirakçısı, hərbi mövzuda bir çox kitabların müəllifi, istefada olan birinci dərəcəli kapitan Aleksandr Qritçenko çıxış edərək keçdiyi döyüş yolundan bəhs etdi. Sovet xalqının faşizm üzərində qalib gəlməsində həm ön cəbhədə döyüşənlərin, həm də arxa cəbhədə rəşadətlə çalışanların zəngin əməyini vurğuladı. Natiq qeyd etdi ki, müharibə vaxtı Bakı neftçiləri gecə-gündüz əzmlə çalışdılar, döyüş texnikalarımızı və təyyarələrimizi yanacaqla təmin etdilər.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının rəisi tibb xidməti polkovnik-leytenantı Tofiq Tağıyev də tədbirdə çıxış etdi. Böyük Vətən müharibəsində onun atası və əmisi də iştirak edib. Hələ erkən çağlarından onların cəbhə xatirələrini maraqla dinlədiyini, qəhrəmanların ömür yolunun örnək olduğunu bildirdi.

Hərbi publisist, tədqiqatçı alim, istefada olan polkovnik-leytenant Şəmistan Nəzirli daha maraqlı bir faktı açıqladı. O dedi ki, II Dünya müharibəsində minlərlə azərbaycanlı qəhrəmanlıqlar göstərib. İlk Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş azərbaycanlı İsrafil Məhərrəm oğlu Məmmədov Moskva ətrafında döyüşlərdə göstərdiyi fədakarlığa görə ikinci dəfə bu ada təqdim olunub.

Şəmistan Nəzirli əslən Şuşadan olan Türkmənistanda yaşayan general-mayor Yaqub Quliyevin də Böyük Vətən müharibəsində misilsiz qəhrəmanlıqlar göstərdiyini qeyd etdi. Türkmənlər Yaqub Quliyevi öz qəhrəmanları kimi təqdim edirlər.

Tədbirdə çıxış edənlər Damət Nəbiyev, ehtiyatda olan polkovnik, tarix elmləri doktoru Mehman Süleymanov, müharibə veteranları Semyon Vereşaka, Aleksandr Andropov, ehtiyatda olan polkovnik Adil Haqverdiyev və başqaları veteranlara göstərilən diqqət və qayğıya görə dövlətimizin rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Tədbirin sonunda Böyük Vətən müharibəsi veteranlarına hədiyyələr təqdim edildi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov ölümündən sonra “Həzi Aslanov” ordeni ilə təltif olunub

***Bakıda, Şəhidlər xiyabanında Albert Aqarunova ölümündən sonra "Həzi Aslanov" ordeninin təqdim edilməsi mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, ailəsi, ictimaiyyət nümayəndələri, döyüş yoldaşları Şəhidlər xiyabanında Milli Qəhrəman Albert Aqarunovun məzarını ziyarət ediblər.

"Dədə Qorqud" Fondunun rəhbəri Eldar İsmayılov Milli Qəhrəmanın qardaşı Rant Agarunova "Həzi Aslanov" ordenini təqdim edib. Bu ordenlə A.Aqarunov ölümündən sonra təltif edilib. E.İsmayılov qeyd edib ki, bu, "Dədə Qorqud" Fondunun ikinci ordenidir.




Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Avropa yəhudiləri sinaqoqunun ravvini Şneor Şeqal, Dağ Yəhudiləri ŞTMEGİ Xeyriyyə Fondunun rəhbəri Semyon İxiilov və başqaları əsrlər boyu yəhudilərin digər xalqlarla əmin-amanlıq şəraitində yaşadığı Vətəni Azərbaycan üçün canından keçən Albert Aqarunovun qəhrəmanlığı haqqında danışıblar.

Qeyd olunub ki, Qarabağ müharibəsinin başlaması ilə A.Aqarunov könüllü olaraq cəbhəyə yollanıb, çünki düşünüb ki, doğulduğu torpaq uğrunda vuruşur. Hərbi əməliyyatlar zamanı, o, Azərbaycan mənbələrinə görə, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində düşmənin xeyli canlı qüvvə və zirehli texnikasını məhv edib. Tank komandiri təyin edilən A.Aqarunov Şuşaya göndərilib.

1992-ci il mayın 8-də Şuşa uğrunda döyüşlərdə tankçı Albert Aqarunov qəhrəmancasına həlak olub. O, igidliyinə görə Azərbaycanın ən yüksək hərbi mükafatına layiq görülüb.

A.Aqarunovun ölümündən sonra Azərbaycan tankçıları öz döyüş maşınlarını "Albert" adlandırdılar.

Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canını fəda edən yəhudi gəncinin xatirəsi ölkədə daim ehtiramla yad edilir.

Aqarunov Albert Aqarunoviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. O, Bakıdakı Şəhidlər xiyabanında dəfn edilib.

Albert Aqarunovun məzunu olduğu Bakıdakı 154 saylı orta məktəb hazırda onun adını daşıyır. Məktəbdə qəhrəmanın guşəsi açılıb, orada həmişə tər çiçəklər olur və bütün mühüm tədbirlər Milli Qəhrəmanın büstü önündə keçirilir.

Mərasimdə Albert Aqarunovun xidmət etdiyi tank taborunun döyüşçüləri iştirak ediblər.

# Şəhid hərbçilərimizin təltif edildiyi medal ailələrinə təqdim olunub



Düşmən təxribatının qarşısını alarkən şəhid olan hərbi qulluqçu Rəşid Rövşən oğlu Mehdiyevin layiq görüldüyü "İgidliyi görə" medalı onun ailəsinə təqdim edilib.

Mayın 7-də Salyandakı Heydər Əliyev Mərkəzində şəhidin valideynlərinin, Müdafiə Nazirliyinin, rayonun rəhbər işçilərinin, ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi mərasimdə Rəşid Mehdiyevin qısa, lakin mənalı ömür yolundan ətraflı söhbət açılıb.



Bildirilib ki, Rəşid Mehdiyev Salyan rayonunun Xələc kəndində dünyaya göz açsa da, şərəfli ölümü ilə bütün Azərbaycanın övladı oldu. İndi onun keçdiyi döyüş yolu hamı üçün örnəkdir.

Rəşid Mehdiyevin ölümündən sonra təltif olunduğu medalı rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov və Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani şəhidin anası Məxfurə Mehdiyevaya təqdim ediblər.

Şəhidin anası çıxış edərək, oğlu ilə fəxr etdiyini bildirib.

* * *

Cəbhə bölgəsində ermənilərin atəşkəsi pozması nəticəsində şəhid olmuş ordumuzun giziri Ruslan Qalib oğlu Ağayevin ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı mayın 8-də onun ailə üzvlərinə təqdim olunub.

Şəhidin doğulduğu Lerik rayonunun Pirasora kəndindəki tam orta məktəbin həyətində keçirilən medalın təqdimolunma mərasimində Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani, Lerik rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin əməkdaşları, hərbi qulluqçular, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani, Lerik rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov və



başqaları ölkəmizdə ordu quruculuğu sahəsində və aprelin əvvəllərində cəbhə bölgəsində döyüşlərdə ordumuzun qazandığı uğurları diqqətə çatdıraraq Vətən torpaqları uğrunda şəhid olmuş Ruslan Ağayevin daim xatirələrdə yaşayacağını, onun qısa, lakin mənalı ömür yolunun gənclərə örnək olduğunu bildiriblər.

Daha sonra şəhidin layiq görüldüyü medal onun atasına təqdim olunub.

Şəhid gizirin atası Qalib Ağayev oğlunun Vətən torpağı uğrunda şəhid olmasından qürur duyduğunu vurğulayaraq oğlunun xatirəsini əziz tutduqlarına və ailəsinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Mərasimin sonunda məktəblilər hərbi vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

Qeyd edək ki, 2015-ci il avqustun 31-dən sentyabrın 1-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması nəticəsində cəbhənin Qazax bölgəsindəki "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, 1991-ci il təvəllüdlü gizir Ruslan Qalib oğlu Ağayev döyüş postunda olarkən düşmən gülləsindən şəhid olub.

**AZƏRTAC**

# Səfərdə beşinci qələbə

***Futbol üzrə Azərbaycan çempionatının I divizionunda XXV tura yekun vurulub. Son oyunları yüksək ovqatla keçirən MOİK səfərdə "Şəmkir"in qonağı olub.***

Oyuna uğursuz başlayan komandamız artıq 4-cü dəqiqədə qapısından qol buraxdı. "Şəmkir"in futbolçusu Orxan Məmmədov topu tora göndərdi.

Ruhdan düşməyən "hərbçilər" rəqibin qapısına doğru həmlələrini artırdılar. 20-ci dəqiqədə yol verdiyi qayda pozuntusuna görə rəqib komandanın oyunçusu qırmızı vərəqə ilə cəzalandırıldı. "Şəmkir"in qapısına təyin edilmiş penaltini divizionun bombardiri Röyal Nəcəfov qola çevirməklə qarşılaşmada tarazlığı bərpa etdi. Bununla o, həm də cari mövsümdə 18-ci qolunu vurdu.

İkinci hissənin 65-ci dəqiqəsində ordu futbolçuları daha bir qol vurdular. Orxan Həsənov tabloya adını yazdırdı və MOİK-ə 3 xal qazandırdı. Bu, "hərbçilərin" çempionatda ardıcıl 9-cu məğlubiyyətsiz oyunu oldu.

Səfərdə ardıcıl 5-ci qələbəsinə sevinən MOİK 44 xalla turnir cədvəlinin 4-cü pilləsində yerini möhkəmlətdi və 5-ci yerdə olan "Şəmkir"lə xal fərqini 6-ya çatdırdı.



| Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|
| 1. Neftçala | 25 | 19 | 2 | 4 | 64-20 | 59 |
| 2. Qaradağ | 25 | 17 | 4 | 4 | 58-28 | 55 |
| 3. Ağsu | 25 | 13 | 7 | 5 | 45-28 | 46 |
| 4. MOİK | 25 | 13 | 5 | 7 | 44-23 | 44 |
| 5. Şəmkir | 25 | 10 | 8 | 7 | 30-23 | 38 |
| 6. Zaqatala | 25 | 9 | 8 | 8 | 46-35 | 35 |
| 7. Turan Tovuz | 25 | 9 | 6 | 10 | 34-31 | 33 |
| 8. Mil-Muğan | 25 | 8 | 8 | 9 | 28-25 | 32 |
| 9. Şahdağ | 24 | 8 | 6 | 10 | 30-42 | 30 |
| 10. Bakılı | 25 | 8 | 5 | 12 | 32-44 | 29 |
| 11. Şərurspor | 24 | 7 | 4 | 13 | 42-42 | 25 |
| 12. Göyəzən | 25 | 3 | 7 | 15 | 15-40 | 16 |
| 13. Energetik | 25 | 4 | 3 | 18 | 14-90 | 15 |
| 14. Bakı | 25 | 8 | 3 | 14 | 31-42 | 12 |

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 251
Nüsxə 4700